**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİNİN BAŞÇISININ**

# SƏRƏNCAMI

№ 62 «01» 04 2019 cu il

*Rayon gəncləri arasında*
*könüllülük fəaliyyətinin daha*
*geniş təşviq edilməsi barədə*

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"nın 5.7.5-ci yarımbəndinə əsasən gənclər arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 5.1.4 və 6.8-ci bəndlərini rəhbər tutaraq

*Qərara alıram:*

1. Könüllü fəaliyyətə cəlb olunan gənclərlə sistemli işin təşkili məqsədilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Kənan Kərimov könüllülərlə iş üzrə koordinator müəyyən edilsin.

2. Könüllülərlə iş üzrə koordinator Kənan Kərimova tapşırılsın:

2.1. Rayon gəncləri arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsi məqsədilə tədbirlər planı hazırlasın və Binəqədi Rayon İcra Hakimiyyəti başçısına təqdim etsin;

2.2. bu sahədə fəaliyyətini Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əlaqələndirsin.

3. Sərəncamın icrasına nəzarət və könüllü fəaliyyətin həyata keçirilməsinə cəlb edilmiş şəxslərlə müqavilə bağlamaq səlahiyyəti Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyevaya həvalə edilsin.

**Elxan Allahverdiyev**